

DÜNYANIN ƏN BÖYÜK DƏRSİ

*Mənim şagirdlərim dünyanın müxtəlif guşələrində baş verən faciələr haqqında biləndə tez-tez soruşurlar: "Bu necə baş verə bilərdi?" Bəzən isə kimsə soruşur: "Biz necə kömək edə bilərik?"*

**Eddi Kostello**
Tayvandakı Şinşu beynəlxalq məktəbin müəllimi

# Qlobal məqsədlərə nail olmaq üçün birgə iş

## Fənn

Tarix, Həyat bilgisi, Coğrafiya

## Təlim məqsədi

- Qlobal məqsədlər haqqında bilik əldə etmək
- Qlobal məqsədlərə nail olmağın çətinliklərini anlamaq və strategiyaları müzakirə etmək
- Şagirdlər tərəfindən Qlobal məqsədlərə nail olmağa kömək edəcək yeni yolların tapılması
- Qlobal məqsədlərə nail olmaq üçün müştərək işin vacibliyini dərk etmək

## Hazırlıq

- Dərsin gündəliyini nəzərdən keçirin.
- Əgər şagirdləriniz "Qlobal məqsədlərə giriş" animasiya filminə baxmayıblarsa, dərsin planını elə qurun ki, bu filmin nümayişi orada öz əksini tapsın.
- Əlavə 2-də verilmiş şəkillərin kifayət qədər nüsxəsini (hər şagirdə 1-ni) printerdə çap edin, karton vərəqə yapışdırın və bir neçə pazlı qayçı ilə kəsib bölüşdürün. Hər şagirdin payına bir pazl düşməlidir.

**Qeyd:** Bu dərsin animasiya filmi və yaxud komiks olan "Qlobal məqsədlərə giriş"-dən sonra keçirilməsi daha məqsədəuyğundur.

Ümumi vaxt:

**60** dəq.

Yaş səviyyəsi:

**8-11** yaş

17 MƏQSƏDLƏR NAMİNƏ TƏRƏFDAŞLIQ

“Dünyanın ən böyük dərsi” - Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş dayanıqlı inkişaf məqsədlərinin elan edilməsi ilə əlaqədar birgə təhsil layihəsidir. Bu layihə 17-ci məqsədin - “Dayanıqlı inkişaf naminə tərəfdaşlıq” məqsədinin mühümlüyünün canlı sübutudur və onun gerçəkləşdirilməsi bizimlə və biri-biri ilə əməkdaşlıq edən tərəfdaşlarımızın köməyi olmadan mümkün olmazdı.


Layihənin təşkilatçılar qrupuna təşəkkür edirik:

Powered By:

Distributed By:

Translated By:

Dünya üzrə bizimlə işləyənlərə xüsusi təşəkkürlər:


“Qlobal düşüncə” təşkilatının əməkdaşlığı ilə hazırlanmış dərs planları (Think Global) www.think-global.org.uk. Ədalətli və dayanıqlı sülhün təmin edilməsi məqsədi ilə təlimin təbliği.

.

## Giriş

5 dəq.

Şagirdlərdən bizim yaşamağımızı təmin edən əsas şeyləri kağız üzərində yazmağı və yaxud onların şəkillərini çəkməyi xahiş edin. Bunun üçün onlara 1-2 dəqiqə vaxt verin. Ehtiyac olsa, su, qida, yaşayış yeri, səhiyyə kimi sözləri onların yadlarına salın.

Əgər şagirdlər "Qlobal məqsədlərə giriş" filminə baxıblarsa, onlara bu barədə düşünməyi təklif edin və izah edin ki, dünyada kifayət qədər qida, içməli su, normal yaşayış yerinə əli çatmayan insanların sayı olduqca çoxdur.

Dünyada, o cümlədən ətrafımızda, keyfiyyətin yüksəlişinə yönəlmiş BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini şagirdlərin yadına salın. Şagirdlərə 1-ci Əlavədə qeyd olunan məqsədləri göstərin.

Qeyd: Şagirdlər "Qlobal məqsədlərə giriş" filminə baxmayıblarsa, zəhmət olmasa, onu dərsdə nümayiş etdirməyə imkan yaradın (nümayiş 8 dəqiqə davam edir). www.globalgoals.org/ worldslargestlesson

## Təlim tapşırığı

25 dəq.

Bu tapşırığın icrası üçün sizə sinifdə şagirdlərin sayı qədər pazl lazım olacaq (əlavə 2).

- Qlobal məqsədlərdə qeyd olunan mövzuları əks etdirən yeddi müxtəlif şəkilli pazl var.
- Hər şagirdə pazlın bir neçə kiçik parçasını paylayın.
- Pazlın hissələrini elə paylamaq lazımdır ki, bəzi şagirdlərdə onun yığılması üçün kifayət qədər hissəcik olsun, bəzilərində lazımı qədərdən çox, digərlərində isə az olsun. Bu barədə şagirdlərə məlumat verməyin.
- Tapşırığın məqsədi – sinifdə hamının dəstəyi ilə mümkün qədər çox pazl yığmaq, Qlobal məqsədlərin hamısı ilə tanış olmaqdır.
- Tapşırıq üç raundda keçirilir.

### 1-ci raund: Şagirdlər pazlı müstəqil yığırlar: 5 dəqiqə

- Şagirdlər görəcəklər ki, müstəqil işləyərək pazlı yığmaq çox çətin, hətta mümkün deyil.
- Şagirdlərə vaxt verin ki, onların hamısında eyni miqdarda pazl hissəcikləri olmadığını görsünlər və ola bilsin ki, pazlın yığılması üzrə tapşırığın yerinə yetirilməsi üsulunu dəyişmək zərurəti yaransın (məsələn, pazl hissəciklərini dəyişdirmək və yaxud müştərək işləmək).

### 2-ci raund: Cütlər və yaxud kiçik qruplarda iş: 8 dəqiqə

- Uşaqlar özləri birləşmək qərarına gələ bilərlər. Əgər bu baş verməsə, onlara deyin ki, bu, tapşırığın öhdəsindən gəlməyə kömək edər.

### 3-cü raund: Bütün siniflə iş: 10 dəqiqə

- Uşaqlar görəcəklər ki, onlar böyük bir birlik kimi müştərək işləsələr, pazlları yığa biləcəklər və bütün Qlobal məqsədlərə nail ola biləcəklər.

*Tapşırığın məqsədi bəzi şagirdlərdə lazım olan bütün əşyaların olması, digərlərində isə, ola bilsin ki, nə isə çatışmadıqları faktını göstərməkdir. Bütün pazlları yığmağın yeganə yolu – birgə işləməkdir. Sinifdən asılı olaraq, bu tapşırığı daha asan və yaxud çətin edərək uyğunlaşdırmaq olar.*

*Bu tapşırıq göstərir ki, pazlın yığılması üçün əllərində hətta çox az miqdarda pazl hissəcikləri olan şagirdlər və yaxud qruplar vacib rol oynayırlar. Hər bir kiçik töhfə məna kəsb edir.*

Bu tapşırıq səs-küylü, xaotik (qarma-qarışıq) keçə bilər – buna hazır olun. Öz ideya və həll yollarını tapmaq üçün şagirdlərə imkan yaradın. Bu, gələcəkdə maraqlı diskussiyalara gətirib çıxaracaq.

## Müzakirə

**5 dəq.**

**Müzakirə edin:** Şagirdlərə Qlobal məqsədlərin pazllarının necə yığıldığı haqda sual verin. Diskussiyanı tapşırığın nə dərəcədə real həyata uyğun olmasına yönəldin. Qlobal məqsədlərə nail olmaq üzrə bütün insanların çalışmaqlarını və bunun nəticəsindən zövq almaqlarını necə təmin edək? Qlobal məqsədlərə nail olmaq üçün bütün dünya üzrə birgə səylər vasitəsi ilə biz nə etməliyik?

Bu diskussiya Qlobal məqsədlərin müzakirəsində pazlların yığılması zamanı əldə edilmiş təcrübəni tətbiq etmək baxımından vacibdir.

## Diferensiasiya və alternativ tapşırıqlar

Bu tapşırığı yazılı şəkildə yerinə yetirmək olar: şagirdlərə pazlların yığılması zamanı nə əldə etdikləri haqda düşünmək üçün onlara vaxt verin.

## Elə indi biz nə edə bilərik?

**20 dəq.**

Elə indi biz nə edə bilərik? Qlobal məqsədlərə nail olmaq üzrə birgə işə başlamaq üçün müxtəlif üsulların "Beyin həmləsi" ilə tapılmasını şagirdlərdən xahiş edin.

Yarana biləcək ideyalar:

- "Biz necə töhfə verə bilərik?" sualı ilə yerli, federal (respublika) xeyriyyə fondlarına müraciət etmək.
- Çimərlikləri, parkları zibildən təmizləyərək səliqə-səhman yaratmaq kimi aksiyalarda iştirak etmək.
- Yerli özünüidarəetmə orqanlarına, bələdiyyəyə və s. abadlıq və yaxud təkmilləşdirmə üzrə təklif irəli sürmək (bu, yazı işi tapşırığının məzmunu ola bilər).
- Məktəbdə, evimizdə, şəhərimizdə, kəndimizdə ətraf mühitin qorunması üçün müxtəlif yollar axtarmaq. Məsələn: utilizasiya proqramları, ictimai bostanlar, avtomobillərdən müştərək istifadə və s.
- Maarifləndirmə: Qlobal məqsədlər haqqında insanlara məlumat vermək, onları www.globalgoals.org saytına daxil olmaqla daha çox öyrənməyə təşviq etmək, dostlar və ailələrin vasitəsi ilə qlobal problemlər haqqında məlumat yaymaq.
- Keçirilən kampaniyalar haqqında öyrənmək, onları izləmək və Qlobal məqsədlərin təşəbbüsünü dəstəkləmək üçün #upforschool petisiyalarını imzalamaq www.aworldatschool.org/upforschool

## Diferensiasiya və alternativ tapşırıqlar

Bu tapşırığı, ideyaları prioritetlərinə, kateqoriyalarına müvafiq müxtəlif rənglərlə qeyd edərək yerləşdirməklə və yaxud şagirdlərin ilk növbədə reallaşdırmalı olduğu ideyalara səs verməklə genişləndirmək olar.

Design for Change, www.dfcworld.com saytında şagirdlər super qəhrəmanların həyatdakı əhvalatlarını, başqa ölkələrdəki həmyaşıdlarının nəyə nail olduqlarını öyrənə bilərlər.

## Müzakirə

5 dəq.

Şagirdlərdən məqsədlərə nail olmaq üçün müştərək iş haqqında nəyi öyrəndiklərini soruşun.

Sonra isə onlardan soruşun ki, Qlobal məqsədlərə nail olmağa görə məsuliyyət daşıyan siyasətçilərə və hakimiyyət nümayəndələrinə nəyi məsləhət görərdiniz.

## Diferensiasiya və alternativ tapşırıqlar

Bunu yazılı ev tapşırığı kimi də vermək olar.

### Qlobal Məqsədlərə çatmaq üçün fəaliyyətə başlayın

Müəllim olaraq sizin şagirdlərin müsbət enerjisini düzgün istiqamətləndirmək və onları aciz olmadıqlarına, dəyişikliyin mümkün olduğuna inandırmaq imkanınız var.

The Design for Change" hərəkatı tərəfindən keçirilən "Mən bacarıram" məktəb müsabiqəsi uşaqları əməkdaşlığa çağıraraq öz ətraflarında dəyişikliklər etməyə və öz təcrübələrini dünyadakı uşaqlarla bölüşməyə dəvət edir.

Başlamaq üçün www.dfcworld.com saytına daxil olun.

"Design for Change"in dərslər və ya şagirdlərə sərbəst fəaliyyətləri üçün www.globalgoals.org/worldslargestlesson sayta daxil olun.

**Əlavə 1**


QLOBAL MƏQSƏDLƏR
1 YOXSULLUĞA SON
2 ACLIĞA SON
3 SAĞLAMLIQ VƏ RİFAH
4 KEYFİYYƏTLİ TƏHSİL
5 GENDER BƏRABƏRLİYİ
6 TƏMİZ SU VƏ SANİTARİYA
7 UCUZ VƏ TƏMİZ ENERJİ
8 LAYİQLİ İŞ VƏ İQTİSADİ ARTIM
9 SƏNAYELƏŞDİRMƏ, İNNOVASİYA VƏ İNFRASTRUKTUR
10 QEYRİ BƏRABƏRLİYİN AZALDILMASI
11 DAVAMLI İNKİŞAF EDƏN ŞƏHƏRLƏR
12 DÜŞÜNÜLMÜŞ İSTEHLAK VƏ İSTEHSAL
13 İQLİM DƏYİŞİKLİYİ İLƏ MÜBARİZƏ
14 SU ALTINDA HƏYAT
15 YER ÜZÜNDƏ HƏYAT
16 SÜLH, ƏDALƏT VƏ GÜCLÜ İNSTİTUTLAR
17 DAVAMLI İNKİŞAF NAMİNƏ TƏRƏFDAŞLIQ
QLOBAL MƏQSƏDLƏR

**Əlavə 2**


QLOBAL MƏQSƏDLƏR
1 YOXSULLUĞA SON
2 ACLIĞA SON
3 SAĞLAMLIQ VƏ RİFAH
4 KEYFİYYƏTLİ TƏHSİL
5 GENDER BƏRABƏRLİYİ
6 TƏMİZ SU VƏ SANİTARİYA
7 UCUZ VƏ TƏMİZ ENERJİ
8 LAYİQLİ İŞ VƏ İQTİSADİ ARTIM
9 SƏNAYELƏŞDİRMƏ, İNNOVASİYA VƏ İNFRASTRUKTUR
10 QEYRİ BƏRABƏRLİYİN AZALDILMASI
11 DAVAMLI İNKİŞAF EDƏN ŞƏHƏRLƏR
12 DÜŞÜNÜLMÜŞ İSTEHLAK VƏ İSTEHSAL
13 İQLİM DƏYİŞİKLİYİ İLƏ MÜBARİZƏ
14 SU ALTINDA HƏYAT
15 YER ÜZÜNDƏ HƏYAT
16 SÜLH, ƏDALƏT VƏ GÜCLÜ İNSTİTUTLAR
17 DAVAMLI İNKİŞAF NAMİNƏ TƏRƏFDAŞLIQ
QLOBAL MƏQSƏDLƏR

Əlavə 2








AMERICAN DIGEST 1658 TO 1896
CITIZENS
CONTRACTORS
INSURANCE
DEEDS TO DISJUNCTIVE ALLEGATIONS



